

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 226 (21.378)

18 noyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Böyük İyirmiliyin" (G-20) Antalya Sammiti çərçivəsində keçirilən işçi lançda çıxış edib.

Dövlətimizin başçısı çıxışında Azərbaycan ilə Türkiyə arasında yüksək səviyyəli əlaqələrin inkişaf etdiyini vurğulayaraq, Türkiyənin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olduğunu xatırladıb. Ölkələrimiz arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdıqları mühüm energetika və digər layihələrin yalnız regionda deyil, dünya miqyasında da böyük əhəmiyyətə malik olduğunu deyib. Bu baxımdan "Cənub" qaz dəhlizi layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində önəmini vurğulayaraq, həmin layihənin həyata keçirilməsində əlaqələndirmənin gücləndirilməsinin əhəmiyyətini qeyd edib.

"Böyük İyirmiliyin" Sammiti çərçivəsində Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, ABŞ Prezidenti Barak Obama, Rusiya Prezidenti Vladimir Putin, Böyük Britaniyanın Baş naziri Devid Kemeron, Almaniya Kansleri Angela Merkel, İtaliyanın Baş naziri Matteo Renzi, Malayziyanın Baş naziri Nacib Rezak, Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə ikitərəfli münasibətlərin inkişafına dair qısa söhbətləri olub.




# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilmişdir

Noyabrın 17-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət etmiş, abidə önünə tər gül dəstəsi düzmüşlər.




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları ümummilli liderin abidəsi önündə xatirə şəkli çəkdirmişlər.

Sonra sessiya öz işinə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair



çıxış edərək demişdir ki, seçici siyahılarına daxil edilmiş 268 min 463 nəfərdən 205 min 166 nəfəri, yəni 76,4 faizi seçkidə iştirak etmişdir. Seçki qutularında aşkar edilən bülletenlərdən 203 min 991-i, yəni 99,4 faizi etibarlı hesab edilmişdir. Seçkilərin keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı qanun pozuntularına yol verilməmiş, aşkarlıq təmin edilmiş, müxtəlif xarici və yerli, o cümlədən siyasi partiyaların müşahidəçiləri seçkilərin gedişini və səslərin hesablanmasını izləmişlər. Təqdim edilmiş sənədlərin təhlili nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş seçkilərin qanunvericiliyə uyğun olduğu, demokratik, aşkarlıq və hər kəsin öz iradəsini sərbəst ifadə etdiyi şəraitdə keçirildiyi müəyyən edilmişdir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti konstitusiya icraatı qaydasında işə baxaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrinə uyğun olaraq keçirilmiş seçkilərin nəticələrini 2015-ci il 10 noyabr tarixli qərarı ilə bütövlükdə təsdiq etmişdir. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2015-ci il 1 noyabrda keçirilmiş seçkilərdə 45 seçki dairəsi üzrə seçilmiş 45 deputatın səlahiyyətləri təsdiq edilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 2-ci maddəsinə əsasən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçilmiş deputatların siyahısını oxumuşdur.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının ilk iclasına 12 saylı Yuxarı Daşarx Seçki Dairəsindən deputat Tariyel Talıbov sədrlik etmişdir.

1 noyabr 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçilmiş 45 deputatın hamısı sessiyada iştirak etdiyindən sessiya öz işinə başlamağa səlahiyyətli hesab edilmişdir.

Azərbaycan Respublikasının Dövlət himni səslənmişdir.

Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçilməsi məsələsi müzakirə edilmişdir.

14 saylı Danyeri Seçki Dairəsindən deputat Asim Əliyev çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilmək üçün Vasif Yusif oğlu Talıbovun namizədliyini irəli sürərək demişdir: 2015-ci il noyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər bir daha göstərdi ki, muxtar respublika əhalisi ümummilli lider Heydər Əliyev yolunun davam etdirilməsinə alternativ görmür. Bu da səbəbsiz deyil. Çünki son illər bu yolun uğurla davam etdirilməsi nəticəsində muxtar respublikada bütün sahələrdə inkişaf və tərəqqiyə nail olunmuşdur. 1995, 2000, 2005 və 2010-cu illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilmiş Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında sənaye, kənd təsərrüfatı, təhsil,

Ardı 2-ci səhifədə

səhiyyə, mədəniyyət inkişaf etdirilmiş, ordu quruculuğu sahələrində tədbirlər görülmüş, yeni iş yerləri açılmışdır. Ötən dövrdə milli dəyərlərimizin qorunub yaşadılması, tarixi abidələrin bərpası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, Naxçıvanın tarixi, ələlxüsus 5 min illik şəhər mədəniyyəti sistemli şəkildə öyrənilmişdir.

Deputat Asim Əliyev qeyd etmişdir ki, muxtar respublikada iqtisadi inkişafın vacib göstəricisi hesab olunan ərzaq və enerji təhlükəsizliyi tam təmin edilmişdir. Hazırda Naxçıvanda 336 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Bir vaxtlar gecələri zülmət qaranlığa qərq olan Naxçıvanın bu gün gecəsi də gündüzü kimidir. Muxtar respublika enerji idxalçısından onu ixrac edən regiona çevrilib. İndi Naxçıvanda texniki inqilabın ən son nailiyyətləri tətbiq olunur. Naxçıvan sabitlik və inkişaf diyarıdır. Hansı sahəyə diqqət yetirsək, böyük dəyişikliklərin, inkişafın şahidi olarıq. Qəbul olunan dövlət proqramları uğurla icra olunur, əhalinin rahat və firavan yaşayışı təmin edilir. Təqdirolunası haldır ki, bu tədbirlər Naxçıvan şəhərində də, ən ucqar dağ kəndində də eyni səviyyədə aparılır. Bir sözlə, iqtisadi inkişafı faizlərlə deyil, dəfələrlə ölçülən, günbəgün müasirləşən qədim Naxçıvanda hər gün bir yeniliyə imza atılır. Artıq blokada çətinlikləri unudulmuş, həyat norması olan yeniləşmə isə daha xoşbəxt gələcəyin carçısına çevrilmişdir.

Asim Əliyev demişdir: Sadalanan bu uğurlar hörmətli Vasif Talıbovun muxtar respublikaya uğurlu rəhbərliyi sayəsində mümkün olmuşdur. Muxtar respublikanın keçdiyi inkişaf yolu, – ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin"***, – deyən ulu öndər Heydər Əliyevin ideyalarına dərin sədaqətin təcəssümüdür. Seçicilərimin mənə verdiyi vəkaləti nəzərə alıb, 7 saylı Aralıq Seçki Dairəsindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmiş Vasif Yusif oğlu Talıbovun yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə namizədliyini irəli sürürəm! Hesab edirəm ki, bu, həm seçicilərimizin, həm də deputat həmkarlarımın fikridir!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarından Sevda Quluyeva, Namiq Məmmədov və Saleh Məhərrəmov çıxış edərək deputat Vasif Talıbovun yenidən Ali Məclisin Sədri seçilməsi təklifini dəstəkləmişlər.

Deputatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə irəli sürülmüş namizədin açıq səsvermə yolu ilə seçilməsini təklif etmişlər. Səsvermənin nəticələrini hesablamaq üçün 3 nəfərdən ibarət hesablayıcı komissiya seçilmişdir.

Sonra səsvermə keçirilmişdir.

Hesablayıcı komissiyanın yekun protokoluna əsasən səsvermədə iştirak edən 45 deputatın hamısı 7 saylı Aralıq Seçki Dairəsindən seçilmiş deputat Vasif Yusif oğlu Talıbovun lehinə səs vermişdir. Beləliklə, Vasif Yusif oğlu Talıbov yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sessiyada çıxış etmişdir.

(Ali Məclis Sədrinin çıxışı qəzetin bugünkü nömrəsində dərc olunur).

Sonra sessiya öz işini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə davam etdirmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinlərinin seçilməsi
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi

Sessiyanın iş qaydası, reqlamenti təsdiq olunmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinlərinin seçilməsi məsələsi müzakirə edilmişdir.

10 saylı Şərur şəhər Seçki Dairəsindən deputat Azər Yadulla oğlu Zeynalov Ali Məclis Sədrinin birinci müavini, 21 saylı Məzrə Seçki Dairəsindən deputat Mirhəşim Əhməd oğlu Seyidov isə Ali Məclis Sədrinin müavini seçilmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov minnətdarlıq edərək göstərilən etimadı doğruldacağını bildirmişdir.

Sonra sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin sədrləri, sədr müavinləri və üzvləri seçilmişdir.

Bununla da beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun ÇIXIŞI

Hörmətli deputatlar!

Hörmətli sessiya iştirakçıları!

Bu gün biz beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasına toplaşmışıq.

Ali Məclisin ötən çağırışdakı fəaliyyət dövründə muxtar respublikada inkişaf təmin edilmiş, yeniləşməyə nail olunmuşdur. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilən quruculuq xətti davam etdirilmiş, idarəetmə orqanlarının məsuliyyəti artırılmışdır.

Bu gün əminliklə demək olar ki, ötən beş ildə nəzərdə tutulan proqramlar icra olunmuş, yeni infrastruktur, istehsal və emal sahələri, sosial-mədəni obyektlər yaradılmış, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi üçün tədbirlər görülmüşdür.

Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunmuş bütün nailiyyətlərin əsasında ümummilli liderimiz Heydər Əliyevin inkişaf konsepsiyası dayanır. Müstəqil ölkəmizin hər bir guşəsində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bu konsepsiyanın bəhrələri göz qabağındadır. Ötən illərin təcrübəsi bir daha göstərdi ki, heç bir qüvvə, kənar təsir Azərbaycanı Heydər Əliyev yolundan döndərə bilməz. Ümummilli liderimizin adı və əməlləri müstəqil Azərbaycanda bu gün olduğu kimi, gələcəkdə də yaşayacaqdır.

Noyabr ayının 1-də Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər xalqımızın Heydər Əliyev yoluna sədaqətinin daha bir ifadəsi oldu. Bu gün seçkilərdə fəallıq göstərən, ulu öndərimizin siyasi kursunu dəstəkləyən bütün seçicilərə minnətdarlığımı bildirirəm!

Muxtar respublika Mərkəzi Seçki Komissiyasına, dairə və məntəqə seçki komissiyalarına, seçkilərin qanunvericiliyin tələbləri səviyyəsində keçirilməsini təmin edən bütün aidiyyəti orqanlara təşəkkür edirəm!

Eyni zamanda beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarını da muxtar respublika seçicilərinin yüksək etimadına layiq görüldüklərinə görə təbrik edirəm!

Hörmətli sessiya iştirakçıları!

Qarşıdakı dövrdə də biz fəaliyyətimizi gücləndirməli, əhalinin yaşayış səviyyəsini daha da yaxşılaşdırmalı, yeni istehsal sahələrinin və bununla bərabər yeni iş yerlərinin yaradılmasını təmin etməli, sosial sahələrin inkişafına diqqəti artırmalıyıq.

Qarşıda dayanan vəzifələrin icrasında hamımıza uğurlar arzulayır, çıxışımı ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: ***"Biz irəliyə baxmalı, ölkəmizin uzunmüddətli, dayanıqlı və səmərəli inkişafını təmin etmək üçün çalışmalıyıq"***.

Sağ olun!

## V.Y.Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vasif Yusif oğlu Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilsin.

**Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasına sədrlik edən** **Tariyel TALIBOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2015-ci il*

## A.Y.Zeynalovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Deputat Azər Yadulla oğlu Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini seçilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2015-ci il*

## M.Ə.Seyidovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Deputat Mirhəşim Əhməd oğlu Seyidov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini seçilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2015-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələri sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları müvafiq komitələrin sədrləri, sədr müavinləri və üzvləri seçilsinlər:

**I. Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsi**

1. Səfərli Hacıfəxrəddin Yəhya oğlu – sədr
2. Babayev Əmir Baxşəli oğlu – müavin
3. Cəfərli Elman Yusif oğlu – üzv
4. İbrahimov Qadir Abbas oğlu – üzv
5. Niftəliyev Hüseyn Əsrafil oğlu – üzv
6. Məmmədli Turan Bəyməmməd qızı – üzv
7. Allahverdiyeva Aidə Məhərrəm qızı – üzv

**II. İqtisadi siyasət komitəsi**

1. Zeynalov Azər Yadulla oğlu – sədr
2. Məmmədov Nazim Məmməd oğlu – müavin
3. Möhbəliyev Telman Əli oğlu – üzv
4. Məmmədov İsa Mustafa oğlu – üzv
5. Qasımov Arif Mikayıl oğlu – üzv
6. Abbasov Məhərrəm Hüseyn oğlu – üzv
7. Quluyeva Sevda Rüstəm qızı – üzv
8. Vəliyev Musa Məmməd oğlu – üzv

**III. Aqrar siyasət, təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komitəsi**

1. Seyidov Mirhəşim Əhməd oğlu – sədr
2. Talıbov Tariyel Hüseynəli oğlu – müavin
3. Bababəyli Nazim Səfərəli oğlu – üzv
4. Əliyev Tahir Rza oğlu – üzv
5. Əliyeva Vüsalə Abazər qızı – üzv
6. Fərəcov Fərəc Rza oğlu – üzv
7. Cəfərli Əhəd Məmməd oğlu – üzv

**IV. Sosial siyasət, elm, təhsil və mədəniyyət məsələləri komitəsi**

1. Məhərrəmov Saleh Heydər oğlu – sədr
2. Həsənli Oruc Qafar oğlu – müavin
3. Həşimli Hüseyn Məmməd oğlu – üzv
4. Əliyev İsmayıl İsrafil oğlu – üzv
5. Mustafayeva İlhamə Rafiq qızı – üzv
6. Rzayev Qurbət İsmayıl oğlu – üzv
7. Dünyamalıyev Qoçəli İsa oğlu – üzv
8. Allahverdiyeva Həbibə Rəşad qızı – üzv

**V. Yerli özünüidarə komitəsi**

1. Babayev Tofiq Süleyman oğlu – sədr
2. Məmmədov Namiq Qəzənfər oğlu – müavin
3. Zeynalov Eldar Əhəd oğlu – üzv
4. Məmmədov Rizvan Təmo oğlu – üzv
5. Əliyev Asim Yediyar oğlu – üzv
6. Tağıyev Asəf Tağı oğlu – üzv
7. Məmmədov Ehtimad Cəfər oğlu – üzv

**VI. İnsan hüquqları, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi**

1. İbrahimov Anar Adil oğlu – sədr
2. Rzayeva Yazgül Həsənəli qızı – müavin
3. Məmmədova Yeganə Qurban qızı – üzv
4. Talıbov Seymur Vasif oğlu – üzv
5. Əzimov Behruz Nurəddin oğlu – üzv
6. İsmayılov Cəbi Əziz oğlu – üzv
7. Həsənov Nüsrət Firudin oğlu – üzv

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2015-ci il*

# Hər gün yeniləşən, dəyişən şəhər Naxçıvan

***Naxçıvan Muxtar Respublikası inkişaf etdikcə, maliyyə resursları artdıqca burada yeni və mütərəqqi layihələr hazırlanır, onun gerçəkləşdirilməsi üçün sürətli və keyfiyyətli işlər görülür. Naxçıvanımızın indi hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır, sənayenin, aqrar sahənin, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafına xüsusi qayğı göstərilir.***



Bu gün təkcə Naxçıvan şəhərinin küçə və prospektlərində, onlarla obyektdə tikinti, yenidənqurma və təmir-bərpa işləri aparılır. Qədim diyarımızın hər yerində yeni binalar ucaldılır, yollar genişləndirilir, kommunikasiya xətləri dəyişdirilir və digər quruculuq işləri həyata keçirilir. Sevindirici fakt isə budur ki, bu gün nə iş görülürsə, hamısı yerli mühəndislərin, ustaların, fəhlələrin əlləri ilə ərsəyə gəlir. Bu, eyni zamanda keyfiyyətə də təsir edir. Çünki insan ən yaxşı işi öz evində görər. Sevgiylə görülən iş isə daha zövqoxşayan və dayanıqlı olar. Naxçıvan şəhərindəki dəyişikliklərdən danışdıqda, iyirmi il əvvəl yox, elə iyirmicə gün əvvəl də etdiyimiz müqayisə kifayət edər ki, şəhərimizdə olan dəyişiklik, inkişaf görünsün.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" Naxçıvan şəhərində bir çox istiqamətdə həyata keçirilən tədbirlərə stimul verib. Ötən müddətdə proqramın icrası istiqamətində görülən işlər muxtar respublika paytaxtında əhəmiyyətli dəyişikliklərə səbəb olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbəri Hicran Rüstəmova həmsöhbət olub, icra müddəti başa çatmaqda olan proqram çərçivəsində görülən işlərlə maraqlandıq. Müsahibim bildirdi ki, proqramda xüsusi diqqət yetirilən sahələrdən biri inzibati binaların tikintisi və təmiridir. Proqramın qəbulundan sonra bu istiqamətdə atılan ilk addım Qaraçuq Kənd Mərkəzinin və xidmət mərkəzinin inşa edilməsi olub, hər iki obyektin tikintisi başa çatdırılıb. Şəhər sakinlərinin keyfiyyətli rabitə xidmətlərindən istifadəsi üçün ötən ildən başlayaraq məqsədyönlü işlər görülüb. Belə ki, "Evədək optika" layihəsi çərçivəsində internetə genişzolaqlı qoşulma, IP TV və telefon xidmətlərinin daha da genişləndirilməsi, simsiz internet şəbəkəsinin ən müasir texnologiyalar əsasında inkişaf etdirilməsi üçün bir sıra tədbirlər reallaşdırılıb.

"Sözügedən proqramda nəzərdə tutulan istilik, su və kanalizasiya təchizatında müasir infrastrukturun yaradılması məqsədilə Naxçıvan şəhərindəki kəhrizlərdə təmir-bərpa işləri aparılıb, su-kanalizasiya qurğularının tikintisi həyata keçirilib. İctimai yaşayış binalarında istilik, su-kanalizasiya sistemlərinin yenidən qurulması və müasirtipli fərdi qazanxanaların tikintisi sahəsində uğurlu nəticələr əldə edilib", – deyən Hicran Rüstəmov bildirdi ki, bəhs olunan dövrdə Naxçıvan şəhərində 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətlərinin müvafiq gərginlikli kabel xətləri ilə əvəz edilməsi həyata keçirilib. Qaz və elektrik enerjisi təchizatında mütərəqqi addımlardan biri Naxçıvan şəhərində smartkarttipli sayğacların quraşdırılmasıdır. Əhali qrupu üzrə təbii qaz və elektrik enerjisi istehlakçılarının müasir standartlara cavab verən texnologiyalardan istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli sayğaclar quraşdırılır.

Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə proqramda diqqəti çəkən başlıca məqam onun sosial həyatın müxtəlif sahələrini əhatə etməsidir. Yol təsərrüfatı və nəqliyyatda müasir infrastrukturun qurulması bu sahədə olan çətinliklərin aradan qaldırılması məqsədi daşıyır. Proqrama uyğun olaraq, ötən il və bu ilin ötən dövrü ərzində əsas hissəsi yekunlaşdırılmış işlər sırasında Naxçıvan şəhərinin küçələrində və Xətai məhəlləsində abadlıq işlərinin aparılması, şəhərdaxili nəqliyyatda işləyən avtobusların beynəlxalq standartlara cavab verən müasir avtobuslarla əvəz olunması, nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması, İslam Səfərli küçəsində avtomobil parkının tikintisi, Qaraçuq, Bulqan, Qaraxanbəyli kəndlərində mərkəzi yollara asfalt örtüyün salınması, ictimai nəqliyyat üçün yeni dayanacaqların quraşdırılması da var. Ötən dövrdə Naxçıvan şəhərində yeni istirahət parklarının qurulması və yaşıllıq sahələrinin artırılması, şəhərətrafı qəsəbə və kəndlərdə bağçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilib.

Ötən il üçün gənclər və idman sahəsində proqramda nəzərdə tutulan mühüm tədbir Naxçıvan şəhərində Gənclər Mərkəzinin tikintisinin başa çatdırılması olub. Şəhər sakinləri üçün təhsil sahəsində ötən ilin və bu ilin ən əlamətdar, yaddaqalan hadisələri Naxçıvan şəhər 11 nömrəli, Qaraçuq kəndində 9 nömrəli tam orta məktəb binalarının yenidən qurulması, "Naxçıvan" Universiteti üçün tədris, inzibati və yataqxana binalarından ibarət kompleksin və Naxçıvan Dövlət Universitetinin Xəstəxanası və Baytarlıq təbabəti ixtisası üçün yeni binaların istifadəyə verilməsidir.

Proqramda Naxçıvan şəhərində daha beş səhiyyə müəssisəsinin müasirləşdirilməsi nəzərdə tutulub. Proqramın qəbulundan ötən dövr ərzində Naxçıvan şəhərinin Qaraçuq kəndində həkim ambulatoriyası tikilərək istifadəyə verilib, Yoluxucu Xəstəliklər Mərkəzi üçün binanın tikintisi başa çatdırılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanası binasının yenidən qurulması, bitkiçilik və heyvandarlıq sahələri üzrə əczaxananın yaradılması istiqamətində görülən işlər isə davam etdirilir. 2014-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində tikinti-bərpa işləri başa çatdırılıb, Dövlət Bayrağı Meydanı və Muzeyinin tikintisi yekunlaşdırılıb, Naxçıvançay vadisində əyləncə və istirahət mərkəzi əhalinin ixtiyarına verilib. Proqrama uyğun olaraq, Naxçıvan şəhərində müasir hamam kompleksinin tikintisi yekunlaşdırılıb, Kalbalıxan küçəsində Xatirə Muzeyi üçün bina inşa edilərək istifadəyə verilib. Qaraçuq Kənd Uşaq Musiqi Məktəbi üçün yeni binanın inşa olunması kənd sakinlərinin ürəyincə olub.

İctimai yaşayış binalarının yenidən qurulması, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da aparılan tikinti-quruculuq işlərinin tərkib hissəsidir. "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın qəbulundan sonra Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin tikintisinə start verilib, Atatürk küçəsində 9 nömrəli yaşayış binasının tikintisi başa çatdırılıb. Atatürk küçəsindəki 5 nömrəli ictimai yaşayış binası yenidənqurmadan sonra sakinlərin ixtiyarına verilib, Heydər Əliyev prospektindəki yeni ictimai yaşayış binasının tikintisi başa çatdırılıb.

Adıçəkilən proqramın qəbulundan ötən müddətdə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, kənd təsərrüfatının infrastruktur təminatı ilə bağlı 20-dən çox tədbirin icrası davam etdirilib.

Görülən işləri naxçıvanlılar çox böyük minnətdarlıqla qarşılayırlar. Burada abadlıq və quruculuq işlərinin müasir və milli memarlıq elementləri əsasında aparılması və şəhərin tarixi imicinə zərrə qədər də xələl gəlməməsi işlərin həm də elmi və yaradıcı şəkildə icrasını təsdiqləyir. Bütün bunlar əsas verir ki, şəhərdə yaşayan və fəaliyyət göstərən hər bir şəxs, eləcə də kollektiv haqlı olaraq qürur duysun. Hər günü yeni uğurlarla yola salan bu diyarın zəhmətkeş insanları belə bir məkanda yaşadıqları üçün özlərini xoşbəxt hesab edirlər. Naxçıvanın fədakar insanları daha böyük əzmlə çalışır, bu günlərindən sabaha inamla baxırlar. Gələcək isə daha böyük uğurlardan xəbər verir.

**Gülnar YÜZBAŞIYEVA**

# Naxçıvan iqtisadi inkişafın yeni mərhələsindədir



***Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sənayeləşmə siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuş, müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması nəticəsində Azərbaycanda istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi sürətlə yüksəlmiş, ümumilikdə, son 10 ildə sənaye istehsalı 2,7 dəfə artmışdır.***

Naxçıvan Muxtar Respublikası tarixən sənaye sahəsində Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutmuşdur. Sənaye sahəsi XX əsrin ortalarından etibarən daha da inkişaf etməyə başlamışdır. 1970-85-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmayə qoyulmuşdur. İqtisadiyyata əsaslı vəsait qoyuluşunun artırılması ilə Naxçıvan tütün-fermentasiya, alüminium qablar zavodları, dəmir-beton məmulatı zavodunun birinci növbəsi, "Sirab" mineral sular, iki şərab zavodları istifadəyə verilmiş, Ordubad baramaaçan və Naxçıvan tikiş fabrikləri yenidən qurulmuş və genişləndirilmişdir.

SSRİ-nin dağılması ilə respublikalar arasında mövcud olan əlaqələrin kəsilməsi, Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibəsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq qarşıya çıxan problemlər ölkə iqtisadiyyatında olduğu kimi, Naxçıvan iqtisadi rayonuna da öz mənfi təsirini göstərmişdir. Muxtar respublikanın blokada şəraitində olması isə sosial-iqtisadi inkişafa daha böyük zərbə vururdu. Sənaye məhsulunun həcminin azalması ilə yanaşı, onun sahə strukturunda da geriləmə baş vermiş, bu azalma yeyinti sənayesində özünü daha çox göstərmişdir. Sonrakı illərdə sənaye sahəsinin böhrandan çıxarılması üçün mühüm tədbirlər görülmüş, qəbul olunmuş dövlət proqramlarının reallaşdırılması sənayenin inkişafına güclü təkan vermiş, 2014-cü ildə 2000-ci ilə nisbətən mədənçıxarma sənayesində 10,3 dəfə, emal sənayesində 73,2 dəfə, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahəsində 17 dəfə artım əldə olunmuşdur.

Tarixə nəzər salarkən görürük ki, Naxçıvan Muxtar Respublikası aqrar iqtisadiyyatdan sənaye istehsalına qədər uzun bir inkişaf yolu keçmiş və 2008-ci ildən etibarən ilk dəfə olaraq sənaye məhsulunun istehsalı kənd təsərrüfatı məhsulunun istehsalını ötmüşdür. Muxtar respublikanın müasir iqtisadi potensialı, sahib olduğu əkinçilik, heyvandarlıq, mədən xammalları Naxçıvanın öz imkanları hesabına təkcə iqtisadi deyil, həm də sosial aspektlərlə bağlı olan sənayeləşmənin daha da sürətlənməsinə imkan verir.

Təbii sərvətlərin son məhsula çevrilməsi iqtisadi inkişafda əsas məsələlərdən biridir. Çünki ucuz qiymətə istehsal etdiyimiz hər hansı kənd təsərrüfatı məhsulunu xaricə ucuz qiymətə satıb əvəzinə baha qiymətə emal olunmuş hazır məhsulu almaq iqtisadiyyata həmin fərq qədər ziyan verirsə, o məhsulu özümüz istehsal edib son məhsula çevirməklə əhalini ucuz məhsulla təmin edib ümumi daxili məhsulu artırmaq iqtisadiyyata bir o qədər xeyir verir. Emal müəssisələrinin sayı artdıqca istehsal artır, daxili bazar formalaşır, əhalinin məşğulluq səviyyəsi yaxşılaşır və alıcılıq qabiliyyəti yüksəlir. Beləcə, dövlətin iqtisadi imkanlarının artması yeniyeni layihələrin həyata keçirilməsinə şərait yaradır.

Xammalın hazır məhsula çevrilməsi enerji mənbələrinin mövcudluğundan asılıdır. Yəni sənaye üçün lazım olan əsas amil elektrik enerjisidir. Ötən əsrin 90-cı illərində elektrik enerjisi qıtlığından çox böyük çətinliklər yaşayan muxtar respublika bu gün özünü nəinki elektrik enerjisi ilə tam təmin edir, hətta tələbatdan artıq elektrik enerjisini ixrac istiqamətində yönəltməklə valyuta qazanır. Son illərdə Naxçıvanda istifadəyə verilən elektrik stansiyaları Naxçıvanın enerji təhlükəsizliyinin tam təmin edilməsi üçün geniş imkanlar yaratmışdır. Hazırda muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində yeni Günəş elektrik stansiyasının quraşdırılması enerji təhlükəsizliyini daha da möhkəmləndirəcəkdir.

2014-cü ildə 2005-ci ilə nisbətən muxtar respublikada sənaye sahəsinə yönəldilən investisiyaların həcmi 5,1 dəfə artmış, əsas fondların dəyərində isə 7,1 dəfə yüksəlmə qeydə alınmışdır.

Sənayeləşmə siyasətinin həyata keçirilməsi nəticəsində əldə olunan nailiyyətlərin rəqəmlərlə ifadəsi onu göstərir ki, 2014-cü ildə 2003-cü ilə nisbətən sənaye məhsulunun həcmi 50,7 dəfə, 1995-ci illə müqayisədə isə 98 dəfə artmışdır. Sənaye məhsulunun ümumi daxili məhsulda xüsusi çəkisi 2004-cü ildəki 10,6 faizdən 2014-cü ildə 30,7 faizə çatmışdır. Qeyd edək ki, hazırda muxtar respublikamızda fəaliyyət göstərən sənaye müəssisələrində ərzaq məhsulları, müxtəlif tikinti materialları, avtomobil, mebel, bir sıra hazır metal məmulatları, qeyri-metal mineral məhsulları, kimyəvi məhsullar, rezin və plastmas, kağız və karton məmulatları, tikiş və toxuculuq məhsulları və sair istehsal olunur. Naxçıvan Muxtar Respublikası bir çox sənaye məhsulları üzrə özünü təmin edir və bir sıra sənaye müəssisələrinin məhsullarını xarici bazarlara çıxarır.

Muxtar respublikanın perspektiv inkişafı üçün sənaye sahəsində dövlət siyasətinin əsas məqsədləri sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi, strukturunun təkmilləşdirilməsi, modernləşdirilməsi və səmərəliliyinin artırılmasıdır. Sənaye parkının yaradılması göstərilən hərtərəfli xidmət, stimullaşdırma tədbirlərinin həyata keçirilməsi ilə rəqabətqabiliyyətli, daxili və xarici bazarın tələbatına uyğun məhsul istehsalına, istehsalın perspektiv fəaliyyətinə, istehsal vasitələrindən effektiv istifadəyə və beləliklə, sənayenin kompleks inkişafını tənzimləməyə imkan verəcək. Mövcud dünya standartlarına uyğun olaraq mütərəqqi texnologiyalar əsasında qurulmuş belə müasir müəssisələr yalnız iqtisadi cəhətdən deyil, həm də yeni iş yerlərinin açılması ilə sosial baxımdan da mühüm əhəmiyyət kəsb edir.

Yeni beşillik proqram növbəti illərdə də sənaye sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olunmasına yönəlmişdir. Bu proqram təkcə yeni sənaye müəssisələrinin yaradılmasını deyil, həm də onların beynəlxalq standartlar və müasir texnologiyalar əsasında qurulmasını tələb edir. Dağ-mədən sənaye müəssisələrinin fəaliyyətinin bərpası, texnoparkların, sənaye komplekslərinin, sənaye şəhərciklərinin və tibb sənayesinin yaradılması kimi əhəmiyyətli tədbirlərin həyata keçirilməsi də proqramda öz əksini tapmışdır.

Sənaye məhsulunun həcminə görə iqtisadi rayonlar arasında öncül yerlərdən birini tutan Naxçıvanın sürətlə inkişaf edən sənaye sektoru artıq milli iqtisadiyyatımızın yüksək gəlir gətirən perspektivli sahəsinə çevrilmişdir.

**Mehriban İMANOVA**
*iqtisad üzrə fəlsəfə doktoru*

## Dədəmiz Qorqud demişdir:



-Yalnız igid cəsur olmaz.

* **

-Yovşan dibi bərk olmaz.

* **

-Qarı düşmən dost olmaz.

* **

-Oğul atanın yetirməsi, iki gözünün biridir.

* **

-Lopa-lopa qarlar yağsa, yaza qalmaz.

* **

-Böyük, iti, polad qılıncı çalmayınca döyüş bitməz.

* **

-Gözü ağlayanın dodaqlarının gülməsi xeyirxahlıq əlamətidir.

* **

-Atalar sözün tutmayan yabana atılar.

* **

-Axan duru sulardan, çılpaq yatan Ala dağdan söz-sov adlayıb-keçər.

* **

-Savaşmadan-vuruşmadan igid doğmaz.

* **

-Bəy igid mərdlik göstərər, elini, obasını xilas edər.

* **

-Kül təpəcik olmaz.

* **

-Əski parça bez olmaz.

* **

-Ana haqqı, Tanrı haqqı.

* **

-Ata adın yürüdən dövlətli oğul hey.

* **

-Bir dama dirək vururlar, o dama dayaq olur.

* **

-Qardaşlı igidlər qalxar-qopar olar.

* **

-Qurd balası qurd olur.

* **

-Çətirli çadır uca alaçıq olmaz.

* **

-İgidin atını at, oxunu ox keçməz.

* **

-Dərinlik gizlədər, çoxluq qorxudar.

* **

-Səni haqqa ismarladım! Haqq yandıran çırağın yanar dursun!

* **

-Bu dünyanı ərənlər əql ilə bulmuşlardır.

* **

-El birliyi sel gücüdür, yıxar keçər, önündə duran olmaz.

## Daha parlaq gələcək naminə

*Şərqin qapısında vüqarla, əzəmətlə, məğrurluqla dayanan Naxçıvan! Beşminillik şəhər mədəniyyətinə malik olan ulu yurd yerim. Sənin dünəninə boylanıram, bu gününə baxıram, sabahını görürəm. Şanlı tarix yaşamısan. Bu gün o tarix böyük sevgi və ehtiramla yad edilərək yaşadılır. Bu tarixin bir-birindən zəngin səhifələri qəhrəmanlıqlarla doludur. Həmin səhifələrdə babalarımızın yenilməz ruhu yaşayır. Dünəndən bu günə boylanıb bizə bu günümüzün qədrini bilməyi, bu torpağı beləcə saxlamağı tövsiyə edir.*

Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim diyar son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Ölkəmizin müstəqilliyi üçün taleyüklü məsələlərin bu diyarda öz həllini tapması bu gün çoxlarına asan görünə bilər. Ancaq Azərbaycanın uçuruma sürüklənmək ərəfəsində olduğu bir vaxtda həmin məsələlərin həll edilməsi cəsarət tələb edirdi. Bu gün qədim diyarımız Naxçıvanda hər bir naxçıvanlı müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi ilə yaşayır. Bu prinsip naxçıvanlıların həyat idealına çevrilib. Fərqi yoxdur, istər yüksək postda duranlar, istərsə də sıravi insanlar üçün dövlətçilik, dövlətçiliyə sədaqət ən ali vəzifədir. Hamı bu vəzifəni yerinə yetirməyi özünün vətəndaşlıq borcu sayır. Bu borc uşaq bağçasından tutmuş ali məktəblərədək təlqin olunur. Belə vətəndaşlıq borcunun layiqincə yerinə yetirilməsi dövlətçiliyin, müstəqilliyin sabahına ən böyük zəmanətdir.

Bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz bu gün inkişaf və tərəqqinin yeni müstəvisindədirlər. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsallıdırlar. Müasirləşən kəndlər bugünkü Naxçıvanın nail olduğu sosial-iqtisadi inkişafın göstəriciləridir.

Dünən Naxçıvanın qonağı olanlar bu gün təəccüblərini gizlədə bilmirlər. Hər addımda bir yenilik görmək, hər gün bir təzəliklə rastlaşmaq naxçıvanlılar üçün adi hala çevrilib. Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir. Xaricdən buraya gələn və yurdumuzun inkişafı barədə bir qədər məlumatı olan bir turistin sözlərini xatırlayıram: Bu yeniliklər gündəlik olaraq sizin gözləriniz qarşısında baş verdiyi üçün sizə adi görünür.

Ancaq görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması kiçik məsələ deyil. Və bütün bunların təməlində doğma yurda bağlılıq, sevgi və məhəbbət, insan amilinə, yurd amilinə böyük diqqət dayanır.

Hər gün, hər saat dəyişən məmləkətimiz başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq donundadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yeni yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi... Bunlar Naxçıvanın bugünkü mənzərəsidir.

Qurmaq, yaratmaq naxçıvanlıların həyat idealına çevrilib. Gələcəyimizin daha parlaq və işıqlı olacağına əsas var. Bu, yurd sevgisindən qaynaqlanan keçilən və seçilən yoldur.

Muxtar MƏMMƏDOV

## Dünən — Naxçıvan — Bu gün

### Naxçıvan şəhərindən görünüş





### Naxçıvan şəhərində yaşayış binası





### Culfa rayon Gal kənd tam orta məktəbi





ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 867